# Azərbaycan Qarabağda tarix yazır

***Azərbaycan Vətən müharibəsində qazandığı tarixi zəfərdən sonra Qarabağ və Şərqi Zəngəzurun bərpası istiqamətində mühüm layihələr reallaşdırır, işğaldan azad olunmuş ərazilərdə quruculuq işlərini intensiv şəkildə aparır.***



Erməni vandallarının xarabazara çevirdikləri əzəli-əbədi yurdlarımızın inkişaf axarına qovuşması, sosial-iqtisadi dirçəlişi üçün Prezident İlham Əliyev qarşıya mühüm vəzifələr qoyub. Dövlətimizin başçısı, həmçinin çıxışlarının birində " Əsas budur ki, buraya qayıdacaq insanlar yaxşı yaşasınlar, yəni, onların rifahı yüksək olsun… Belə səfalı torpaqlarda ancaq yaxşı dolanışıq olmalıdır",–deyib.

Dövlətimizin başçısı İkinci Qarabağ müharibəsindən dərhal sonra düşməndən təmizlənən bölgənin yenidən qurulmasını xüsusi diqqət mərkəzində saxlayıb. Ölkə rəhbərinin son bir il ərzində azad edilən ərazilərə–Şuşa, Füzuli, Zəngilan, Xocavənd, Cəbrayıl, Ağdam, Qubadlı, Laçın, Kəlbəcər, Talış və Suqovuşana davamlı səfərləri zamanı bir sıra strateji infrastruktur obyektləri işə salınıb, yenilərinin təməli qoyulub. Bununla da düşmənin darmadağın etdiyi şəhər və kəndlərimizə həyat yenidən qayıdıb. Azadlığına qovuşan torpaqlarımızda aparılan böyük quruculuq və bərpa işlərinin sürəti getdikcə artıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın fevralın 13-də Ağdam rayonuna səfərləri də bu baxımdan mühüm önəm daşıyıb. Səfər çərçivəsində "Azərenerji" ASC-nin 110/35/10 kV-luq "Ağdam-1" və "Ağdam-2" elektrik yarımstansiyaları, "Qarabağ" Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzi istifadəyə verilib, eyni zamanda, Ağdam Sənaye Parkında fəaliyyət göstərəcək bərpa olunan enerji mənbələri ilə qidalanan işıq dirəkləri, xalça istehsalı müəssisələri, "Park Forest Otel Ağdam" mehmanxanası və 209 mənzildən ibarət yeni yaşayış kompleksinin təməlləri qoyulub.

Ölkə rəhbəri və birinci xanım səfər zamanı Heydər Əliyev Fondu tərəfindən Ağdam Cümə məscidində bərpa-restavrasiya işlərinin gedişi, həmçinin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin qərargahında yaradılan şəraitlə maraqlanıb, Qarabağ xanlarının türbələri və yaşayış evi – İmarət kompleksində olublar.

Prezidenti İlham Əliyev daha sonra 210 çarpayılıq Ağdam Rayon Mərkəzi Xəstəxanasının təməlini qoyub.

Ağdam şəhərində yeni inşa olunmuş "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarının, o cümlədən "Qarabağ" Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin açılışı zamanı dövlətimizin başçısına və birinci xanım Mehriban Əliyevaya görülən işlər barədə məlumat verilərək bildirilib ki, düşməndən təmizlənən Ağdam rayonunun respublikanın ümumi enerji sisteminə qoşulması, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi üçün "Xındırıstan" yarımstansiyasından 35 kilometr məsafədə ikidövrəli 110 kilovoltluq yüksəkgərginlikli elektrik verilişi xətti reallaşıb. Ağcabədidən Xındırıstana, oradan da "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarına qədər ümumilikdə 63 kilometr məsafədə isə 110 kilovoltluq xəttin üzərində ildırımdan mühafizə və yarımstansiyalararası informasiya mübadiləsi üçün 24 damarlı fiberoptik kabel çəkilib. Bununla da Ağdama təkcə elektrik xətti deyil, həm də ən yüksək ötürmə qabiliyyətli sürətli internet xətti gətirilib.

Məlumatda Azərbaycanın elektroenergetika tarixində ilk dəfə Qarabağ və Şərqi Zəngəzurun elektrik şəbəkəsinin Regional Rəqəmsal İdarəetmə Mərkəzi məhz Ağdamda yaradıldığı da vurğulanıb. Rəqəmsal İdarəetmə Mərkəzinin binası Operativ Qərargahın şəhərsalma işçi qrupu tərəfindən təsdiq edilmiş müasir üslubda hazırlanmış memarlıq layihəsi əsasında inşa olunub.

Daha sonra Qarabağ Regional Rəqəmsal İdarəetmə Mərkəzi vasitəsilə regiondakı bütün elektrik stansiyaları, yarımstansiyalar, ötürmə xətlərinin monitorinqi, önləyici analizlər, açılıb-qoşulmalar, tənzimlənmələr və başqa əməliyyatların avtomatik şəkildə həyata keçiriləcəyi qeyd edilib. Həmçinin ölkə üzrə 2500 kilometr məsafədə çəkilən optik kabel şəbəkəsi üzərindən qurulan yeni sistem vasitəsilə nəinki Qarabağın, bütövlükdə Azərbaycanın enerji sisteminin əhatə olunduğu bildirilib.

Dövlətimizin başçısına verilən məlumatda "Ağdam-2" yarımstansiyasının da dördüncü sənaye inqilabının yaratdığı texnoloji yeniliklərə uyğun olaraq süni intellektə adaptasiya olunan enerjisistem şəbəkəsi konsepsiyası əsasında tikildiyi qeyd edilib. Eyni zamanda, adları çəkilən yarımstansiyaların inşasının minatəmizləmə prosesi ilə parallel şəkildə gerçəkləşdirildiyi bildirilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva səfər çərçivəsində Ağdam Sənaye Parkında iki müəssisənin təməlini qoyulması mərasimində də iştirak ediblər.

Xatırladaq ki, Qarabağda sənaye parkının qurulması qarşıya innovativ və yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli sənaye istehsalının inkişafına, xidmətlərin göstərilməsi üçün münbit şəraitin yaradılmasına və bu sahədə sahibkarlığın dəstəklənməsinə nail olmaq, bölgədə yerli və xarici investisiyalar üçün əlverişliliyin artırılması, əmək qabiliyyətli əhalinin istehsal sahəsində məşğulluğunun yüksəldilməsi kimi məsələləri qarşıya mühüm vəzifələr kimi qoyur.

Yeri gəlmişkən, Qarabağ və Şərqi Zəngəzurda sənayeləşmə prosesinin mərhələli şəkildə aparılacağı nəzərdə tutulur. Abadlıq və quruculuq işlərinin həyata keçirilməsi üçün ilkin mərhələdə tikinti şirkətləri prosesə qoşulur. Nəzərə alsaq ki, əhali tezliklə işğaldan azad edilmiş ərazilərə qayıdacaq, belə olan halda, onların ərzağa olan tələbatının təmin edilməsi xüsusi diqqətdə saxlanılır. Bu baxımdan, növbəti mərhələdə kənd təsərrüfatı məhsullarının emalı, yüngül və qida sənayesinin formalaşdırılması prosesinin həyata keçiriləcəyi planlaşdırılır.

Ağdam Sənaye Parkında iki müəssisənin təməlinin qoyulması mərasimində dövlətimizin başçısına və birinci xanıma bu istiqamətdə görüləcək işlər barədə məlumat verilərək, bildirilib ki, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən ölkəmizdə həyata keçirilən iqtisadi siyasətin ən önəmli istiqamətlərindən biri sənaye sektorunun, xüsusilə də qeyri-neft sənayesinin sürətli inkişafıdır. Bu baxımdan yeni dövrün iqtisadi inkişaf tələbləri ilə uzlaşan mütərəqqi mexanizmlərin tətbiqi - sənaye zonalarının (sənaye parkları və məhəllələri) yaradılması xüsusi önəm kəsb edir. Sənaye zonaları sahibkarlıq fəaliyyətinin genişləndirilməsində, biznesin innovativliyinin və səmərəliliyinin artırılmasında, yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli məhsul istehsalında, neft-qaz amilindən asılılığın azaldılmasında, qeyri-neft sektorunun inkişafında və əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm amilə çevrilir.

Məlumatda, həmçinin Ağdam Sənaye Parkının 190 hektar ərazini əhatə etdiyi, burada tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, ət və süd məhsulları, yem, gübrə istehsalı və emalı, eyni zamanda, xidmət sahələrinin, soyuducu kameraların və s. təşkili nəzərdə tutulur.

Ağdam Sənaye Parkında quruculuq işləri indiyədək mərhələli şəkildə həyata keçirilib. İlk olaraq 190 hektar ərazinin 74 hektardan çoxu mina və hərbi sursatlardan təmizlənib. Sənaye Parkında mobil tipli şəhərcik salınıb. Ərazidə tikinti aparılacaq sahənin su ilə təmin edilməsi məqsədilə 350 metr dərinliyində subartezian quyusu qazılıb. Əraziyə 10 kilovoltluq elektrik xətti çəkilib və 630 kilovoltluq transformator məntəqəsi quraşdırılıb.

Ağdam Sənaye Parkının 74 hektar ərazisində topoqrafik planlama və mühəndis-geoloji tədqiqat işləri yekunlaşdırılıb. Topoqrafik planlama zamanı parkın ərazisində dağılmış tikililərin geometrik ölçüləri müəyyən edilib və ərazidən daşınması nəzərdə tutulan tullantıların həcmi dəqiqləşdirilib.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya səfər çərçivəsində Ağdam "Park Forest Otel Ağdam" mehmanxanasının təməlqoyma mərasimində mehmanxananın layihəsi barədə məlumat verilərək bildirilib ki, bu sosial obyekt 2,16 hektar ərazidə inşa ediləcək və 110 nömrədən ibarət olacaq. Mehmanxananın ərazisində əsas bina ilə yanaşı, konfrans mərkəzi, açıq havada üzgüçülük hovuzu, uşaq oyun meydançası, gəzinti yolları və istirahət zonaları yaradılacaq.

"Park Forest Otel" mehmanxanasının tikilməsi strateji mövqeyinə görə Qarabağın giriş qapısı hesab edilən Ağdam rayonunda turizm potensialının inkişafına mühüm töhfə verəcək.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdamda yeni yaşayış kompleksinin təməlqoyma mərasimində də iştirak ediblər. Burada dövlətimizin başçısına və xanımına inşa olunacaq kompleks barədə məlumat verilərək, ümumi sahəsi 1,55 hektar olan ərazidə ilkin mərhələdə 209 mənzildən ibarət 6 yaşayış binasının inşa ediləcəyi, inşaat işlərinin 2023-cü ilin dekabrında başa çatdırılacağı bildirilib.



Beləliklə, Vətən müharibəsində şanlı qələbə müjdəsini Azərbaycan xalqına çatdırmaq üçün tarixi müraciətində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ifadə etdiyi "Məcburi köçkünlər yaxşı bilirlər ki, onların öz dədə-baba torpaqlarına qayıtmaları üçün biz əlimizdən gələni edəcəyik, işğaldan azad edilmiş bu torpaqları yenidən quracağıq" ifadəsi Ağdam rayonunda yeni yaşayış kompleksinin təməlinin qoyulması ilə bir daha təsdiqini tapır. Otuz ilə yaxın müddətdə doğma yurd-yuvalarına qovuşmaq həsrəti ilə yaşayan ağdamlılar üçün bu yaşayış kompleksinin təməlinin qoyulması onları bu arzularına daha da yaxınlaşdırır. Bu mərasim, eləcə də növbəti mərhələdə 0,86 hektar ərazidə daha 4 yaşayış binasının inşası ilə bağlı layihələndirmə işləri aparılması ağdamlılarda bu arzuların da olduqca qısa müddətdə reallaşdırılacağına qəti inam yaradır.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Ağdam səfəri ilə bağlı bir məqamı da xatırlatmaq istərdik. Dövlətimizin başçısı Ağdam Cümə məscidində görülən bərpa-restavrasiya işlərinin gedişi ilə tanış olduqdan sonra çıxışında deyib: "Artıq Ağdama və Şuşaya avtobus marşrutları təşkil edilib. Ağdamlılar, şuşalılar və digər bölgələrdən olan vətəndaşlar gəlirlər, tanış olurlar və öz gözləri ilə görürlər ki, bizim xalqımız hansı bəla ilə üz-üzə idi. Otuz il ərzində məqsədyönlü şəkildə bütün şəhərlərimiz, kəndlərimiz, məscidlərimiz, qəbiristanlıqlarımız ermənilər tərəfindən dağıdılıb. İmarət ermənilər tərəfindən dağıdılıb, təhqir edilib. İndi bəziləri gələcək barışıq haqqında danışırlar. Əlbəttə ki, Ermənistan-Azərbaycan arasında sülh müqaviləsi olmalıdır. Beynəlxalq hüququn norma və prinsipləri əsasında qarşılıqlı surətdə ölkələrin ərazi bütövlüyünü tanımaq şərtilə bu sülh müqaviləsi imzalanmalıdır. Mən də onu demişəm. Ancaq heç vaxt Azərbaycan xalqı bu vəhşiliyi unutmamalıdır. Heç kim bu vəhşiliyi unutmamalıdır.

Əminəm ki, bizim bu gün gördüyümüz işlər, o cümlədən ordu quruculuğu sahəsində gördüyümüz işlər Azərbaycanı daha da gücləndirəcək və Ermənistanda baş qaldıran revanşist qüvvələrə cavab olacaq. Biz öz torpağımızdayıq. Biz bu torpağa qan tökərək, şəhidlər verərək qayıtmışıq. Bu torpaqda möhkəm dayanmışıq və bu torpaqlarda əbədi yaşayacağıq. Qarabağ Azərbaycandır!".

Bu sözlər ölkə rəhbərinin həm işğalçı rejimə, revanşist qüvvələrə mesajı kimi diqqət çəkir, həm də Qarabağ və Şərqi Zəngəzurun tez bir zamanda dünyanın ən inkişaf edən məkanlarından birinə çevriləcəyi əminliyi yaradır.

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Ağcabədi rayonuna səfərləri də, ümumiyyətlə, Azərbaycan regionlarının sosial-iqtisadi inkişafının daim diqqət mərkəzində saxlanıldığını bir daha təsdiqləyir. Xatırladaq ki, dövlətimizin başçısı və birinci xanım səfər zamanı ümummilli lider Heydər Əliyevin rayon mərkəzindəki abidəsini ziyarət etdikdən sonra "Ağcabədi taxıl Aqropark"da yaradılan şəraitlə tanış olublar.

Dövlətimizin başçısı və birinci xanım yenidən qurulan 110/35/10 kilovoltluq "Ağcabədi" yarımstansiyasının, Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yeni inşa olunan hərbi şəhərciyinin, Avşar–Salmanbəyli–Aşağı Avşar–Xocavənd avtomobil yolunun açılışlarında iştirak ediblər.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***